www.525.az Facebook.com/525.az İnstagram.com/525ciqezet

# "XIX əsr Qarabağ şairlərinin şeir antologiyası"ndan

***Əziz oxucular!***
***Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 5 yanvar 2022-ci il tarixli Sərəncamı ilə 2022-ci il "Şuşa İli" elan edilib. Bununla əlaqədar, Şuşanın - zəngin tarixi keçmişə, ədəbi-mədəni irsə malik bu diyarın XIX əsrdə yaşayıb-yaratmış şairlərinin əsərləri ilə geniş oxucu kütləsini ətraflı tanış etmək niyyətindəyik. Bu məqsədlə həmin dövrün bir sıra ədibləri barədə yığcam bilgiləri və əsərlərindən nümunələri, "XIX əsr Qarabağ şairlərinin şeir antologiyasından" rubrikası altında, dəyərli "525-ci qəzet" vasitəsilə diqqətinizə çatdırırıq.***



**Raqub KƏRİMOV**
**Filologiya üzrə elmlər doktoru, professor**



**Məhəmməd bəy Aşiq**

*Məhəmməd bəy Behbud bəy oğlu Cavanşir "Aşiq" təxəllüsü ilə şeir yazdığı üçün Məhəmməd bəy Aşiq adı ilə daha məşhurdur. O, 1776-cı ildə Şuşa şəhərində anadan olub. İstər XIX əsrdə yaranan təzkirələrdə, istərsə də ayrı-ayrı tədqiqat əsərlərində şairin adı böyük ehtiramla yad edilir. Salman Mümtazın verdiyi məlumata görə, şairin ikinci babası Behbudəli bəy Şuşa şəhərinin banisi Pənahəli xanın əmisi oğludur. Behbud bəyin oğlanlarından biri - Mirzəli bəyin üç oğlu olduğu üçün onun yaşadığı yer "Üçoğlan" adlanır və getdikcə bu yer böyük bir kəndə çevrilir. Məhəmməd bəy bir müddət sonra kiçik qardaşı Böyük bəydən ayrılaraq Qarabağdakı mülklərini ona verib, özü isə Zəngəzur mülklərini götürür və Zəngilana köçərək orada yaşayır.*

*Firudin bəy Köçərlinin məlumatında deyilir ki, Məhəmməd bəy "ziyadə qeyrətli, sahibi-kəmal bir vücud imiş,.. müasirləri arasında hörmət və izzəti çox imiş. Bununla belə düşmənləri də az deyilmiş. Rus dövləti Zəngəzur mahalını zəbt edərkən orada bəzi iğtişaşlar baş verir. Şairin düşmənləri bu hadisədən istifadə edərək Məhəmməd bəyi bu iğtişaşların əsas təşkilatçısı kimi qələmə verir və nəticədə, "ricalı-dövlət dəxi onun haqqında söylənilən iftira və böhtanları təhqiq etməmiş" onu Ordubada sürgün edirlər və şair 1861-ci ildə ömrünü orada başa vurur.*

*Məhəmməd bəy klassik və folklor üslubunda yazan şair kimi tanınır. Onun əsərləri "Keçmişlərdən gələn səslər" dərgisində (V buraxılış, B., Elm, 1987), Azad Qaradərəlinin "Aşiqlər" (B., 1998) kitabında hissə-hissə nəşr edilib. Buradakı şeir nümunələri göstərilən əsərlərdən və AMEA ƏYİ-nin arxivində saxlanılan cünglərdən götürülüb.*